# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 88** **Bakı şəhəri, 5 aprel 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 21 yanvar tarixli 11 nömrəli, 16 fevral tarixli 36 nömrəli və 4 mart tarixli 52 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2403 19 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2403 19 100 | – – – netto çəkisi 500 q-dan çox olmayan ilkin qablaşdırılmada | | |
| 2403 19 100 1 | – – – – istehsal məqsədli | - | 1 kq 1 ABŞ dolları |
| 2403 19 100 9 | – – – – digərləri | - | 1 kq 1 ABŞ dolları |

1.2. 2403 19 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2403 19 900 | – – – digərləri | | |
| 2403 19 900 1 | – – – – istehsal məqsədli | - | 1 kq 1 ABŞ dolları |
| 2403 19 900 9 | – – – – digərləri | - | 1 kq 1 ABŞ dolları |

1.3. 2403 99 900 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 2403 99 900 2 | – – – – qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları | - | 1 kq 1 ABŞ dolları |

1.4. 7102 10 000 0, 7102 21 000 0, 7102 29 000 0, 7102 31 000 0, 7102 39 000 0, 7103 91 000 0, 7106 10 000 0, 7106 91 000 0, 7106 92 000 0, 7108 11 000 0, 7108 12 000 0, 7108 13 100 0, 7108 13 800 0, 7108 20 000 0, 7110 11 000 0, 7110 19 100 0, 7110 19 800 0, 7113 11 000 0, 7113 19 000 0, 7114 11 000 0, 7114 19 000 0, 7118 90 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "0" rəqəmi ilə əvəz edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti 2021.- 6 aprel.- S.4.